Yeni Azərbaycan.- 2025.- 13 may, №80.- S.8.



ibarət divanını tərtib edib.

Ədəbiyyatşünasların fikrincə şəhər həyatının, şəhər mədəniyyətinin əsasını təşkil edən əsnaf təbəqəsini - sənət və peşə sahiblərini klassik şeirimizdə Məhsəti səmimiyyəti və Məhsəti qüdrəti ilə öyən ikinci sənətkar yoxdur. O, yaradıcılığının böyük bir hissəsini məhz bu zümrəylə bağlayaraq sənətkarlardan ibarət zəngin obrazlar yaradıb. Məhsəti irsinə bu prizmadan baxarkən onun əsl sənətkar böyüklüyünü anlayırıq və ədəbi hünərinin mahiyyətini dərk edirik. Məhsəti o sənətkarlarımızdandır ki, poetik yadigarlarının bəxtinə sərhədlərdən çıxmaq, ölkələr aşmaq və hər yerdə də qonaq kimi deyil, doğma kimi qarşılanmaq düşür.

# Şərq ədəbiyyatının incisi...

## Məhsəti Gəncəvinin doğum günüdür

Zəngin ənənələrə malik çoxəsrlik Azərbaycan poeziyasının tanınmış nümayəndəsi Məhsəti Gəncəvinin ədəbiyyatımızın tarixində özünəməxsus yeri var. Onun yaratdığı söz sənəti nümunələri insanı ucaldan yüksək bəşəri duyğular, nikbin ruh və dərin lirizmlə səciyyələnir. Şairənin ədəbi şəxsiyyəti yaradıcı Şərq qadınının fikir və mənəvi azadlığının parlaq təcəssümü kimi Qərb şərqşünaslarının əsərlərində çox yüksək dəyərləndirilib.

Bu gün şairənin anadan olmasından 936 il ötür. Gəncə şəhərində dünyaya göz açmış Məhsəti Gəncəvi uzun və səmərəli ömür sürüb, müasiri dahi Nizami kimi mükəmməl təhsil alıb, poeziya, fəlsəfə, musiqi, şahmat və başqa sahələrdə dövrünün kişi sənətkarlarından heç də geri qalmayıb. Onun müxtəlif qaynaqlardan toplanmış 200-dən artıq rübaisi Orta əsrlər Azərbaycan renessansının klassik örnəkləri cərgəsində özünə əbədi yer tutub.

Məhsətinin ən böyük nailiyyəti, bir ömür bahasına qazandığı ən başlıca xoşbəxtliyi budur ki, o, şairə olaraq əbədi dirilik, ölməzlik qazandı. O, hüsnüylə, təravətli rübailəriylə, sətrəncdəki istedadıyla, musiqidəki səriştəsiylə, büründüyü şöhrət və diqqət haləsiylə ucaldı.

İlk dəfə olaraq Səhab Tahiri tərəfindən Məhsətinin müxtəlif mənbələrdən rübai, qitə və qəzəlləri toplanıb və 1957-ci ildə 200-ə yaxın şeir parçasından

Şərq qadınları şahmat oynamaqda yüksək istedad sahibi olublar. Sevimli şairəmiz Məhsəti Gəncəvi də bu müdrik oyunla maraqlanıb. Əmir Əhmədlə şahmat taxtası arxasında oyun zamanı Məhsətinin əqil və fərasəti, istedad və bacarığı sayəsində bədahətən dediyi rübailər onun şahmat oyununun incəliklərinə vararaq, ondan zövq almaq bacarığını göstərir. Azərbaycan qızının yüksək şahmat istedadı alman alimi, şərqşünas F.Meyerin də diqqətini cəlb edir. 1963-cü ildə Visbadendə alman dilində nəşr etdirdiyi "Gözəl Məhsəti" kitabında o, şairənin həyat və yaradıcılığını öyrənmək, onun ədəbi irsini toplayıb nəşr etmək sahəsində faydalı addım ataraq, Məhsətinin Gəncədə doğulduğunu, onun şair, musiqişünas, xanəndə olduğunu, həm də çox gözəl arfa çaldığını göstərmişdi.

Şairə 1160-cı ildə 71 yaşında dünyasını dəyişib. Məhsəti Gəncəvi həqiqi bir şairə oldu, dünyanı daha dərindən duydu, hiss etdi, insan ağrılarına biganə qala bilmədi... Bu, böyük xoşbəxtlik idi ki, ona nəsib olmuşdu!

*Yeganə BAYRAMOVA*